# Yeni Təfəkkür



# Seyfəddin Dağlının yubileyi keçirildi

*Bu günlərdə "Azərkitab" Kitab Mərkəzində görkəmli şair, nasir, dramaturq, publisist, ictimai xadim, Dövlət mükafatı laureatı Seyfəddin Dağlının anadan olmasının 100 illiyinə həsr olunmuş yubiley tədbiri keçirilmişdir.*

Cabir Novruz Mədəniyyət Fondu, Yasamal rayon Ağsaqqallar Şurası, "Azərkitab" Kitab Mərkəzi, "Könüllülər" Kitabxana İctimai birliyinin təşkilatçılığı ilə keçirilən tədbiri giriş sözü ilə Əməkdar jurnalist, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Qafar Əsgərzadə açaraq ədibin həyat və fəaliyyəti haqqında məruzə etdi. O, çıxışında S.Dağlının xalqın maariflənməsində mayak rolu oynamasından, öz kəskin və iti qələmi ilə dövrünün eybəcərliklərini, haqsızlığını açıq şəkildə ifadə etməsindən, yaradıcılıq yolu ilə həyat yolu qədər zəngin, məzmunlu, maraqlı olmasından, çoxşaxəli yaradıcılıq yolu keçməsindən söz açdı. Xüsusilə, onun Azərbaycan Televiziyası və Radiosunun inkişafında, eləcə də böyük diktor nəslinin yetişməsindəki rolundan bəhs etdi.

Tanınmış kulturoloq, tarix elmləri doktoru, professor Fuad Məmmədov S.Dağlının Azərbaycan ədəbiyyatının, mədəniyyətinin inkişafındakı xidmətlərindən, xüsusilə, gənc nəslin estetik mədəniyyətinin yüksəldilməsi sahəsindəki işlərindən bəhs etdi.




Xalq artistləri Nurəddin Mehdixanlı, Əli Nur, Əməkdar artist Azad Şükürov S.Dağlının Azərbaycan teatr mədəniyyətindəki rolundan, tamaşaya qoyulan əsərlərindən, onunla bağlı xatirələrindən söz açdılar.

Filologiya üzrə fəlsəfə doktoru Firudin Qurbansoy ədibin satirik kimi fəaliyyətindən söz açaraq, onun Respublika Gənc Satiriklər Məktəbinin yaradıcısı olduğunu vurğuladı. O, 1970-76-cı illərdə indiki Prezident Kitabxanasının bunasında gənclərə məccani (pulsuz) olaraq dərs keçmişdir. Televiziyada yayımlanan "Sadiqlər", " Mənziliniz mübarək", "Adı mənim dadı sənin" tamaşalardan bəhs etdi. F. Qurbansoyun çıxışındakı bir epizod böyük maraq doğurdu. Belə ki, S.Dağlı dahi dramaturq C.Cabbarlıya həsr olunmuş "Solmaz bir bahar" bədii-sənədli filminin ssenari müəllifi idi. Filmə görə onu "Komsomol" mükafatına təqdim edərkən o, deyib: "Təşəkkür edirəm. Amma mənim yaşım komsomol yaşı deyil. Onu gənclərə verin. Elə, filmin rejissoru gənc Cahangir Mehdiyevə". Beləliklə, C.Mehdiyev bu mükafata layiq görülür.

Milli Qeyri-hökümət Təşkilatları Fondunun prezidenti Rauf Zeyni S.Dağlının ictimai xadim kimi rolunu, onun əsərlərinin gənclərin tərbiyəsindəki əhəmiyyətini vurğulayaraq yubiley tədbirlərinin QHT-lər vasitəsilə davam etdiriləcəyini ifadə etdi.

Əməkdar artist Rəşad İlyasov S.Dağlının şeirlərinə yazılmış mahnılardan, ədibin C.Cahangirov, T.Quliyev, R.Mirişli kimi görkəmli bəstəkarlarla iş birliyindən söz açdı və SSRİ Xalq artisti Z.Xanlarovanın repertuarından onun sözlərinə yazılmış "Darıxma" mahnısını canlı ifa etdi.

Tədbirdə iştirak edən ədibin övladları Bəhlul, Altay Abbasovlar, Qəmər Seyfəddinqızının adından çıxış edən B.Abbasov atasının xatirəsinə verilən yüksək dəyərə görə tədbir iştirakçılarına və təşkilatçılarına, aparıcıya minnətdarlığını bildirdi.

Sonda tədbir iştirakçıları S.Dağlının məzarını ziyarət etdilər, ruhuna dualar oxudular, gül çələngi qoydular.